# Xalq rəssamı Qəzənfər Xalıqovun rəngkarlıq əsərlərində bədii ifadə vasitələri tədris mövzusu kimi

**Xəyalə Nüsrət qızı Yusifova**
*Bakı Qızlar Universitetinin baş müəllimi*
**E-mail:** khayalayusifova1@ gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** rəngkarlıq, təsvir, obraz, kompozisiya, portret, üslub, tədris
**Ключевые слова:** картина, описание, изображение, композиция, портрет, стиль, обучение
**Key words:** painting, description, image, composition, portrait, style, teaching

XX əsr Azərbaycan incəsənətinin və təsviri sənətinin yüksək xətt ilə inkişaf etmə mərhələsinə qədəm qoymuşdur. Bu isə o deməkdir ki, orta əsrlərdən gələn ənənəvi sənətin forma və qaydalarını yerinə yetirmək mümkün deyildi. Yeni dövr, yeni ideyalar, yeni üslub, yeni formalarla daha da zənginləşməsi üçün mütləq zəmin yaratmışdır. Məzmun və forma arasındakı bu uyarsızlıq ənənəvi kitab miniatürləri, ornamental - dekorativ formadan realistik təsviri sənət görünüşünə sıçrayışa, keçidə səbəb oldu. Təsviri sənət üçün geniş meydan açıldı və yeni imkanlar yarandı. Bu illər ərzində öz inkişaf mərhələsini yaşayan təsviri sənət, professional janrların yaranması prosesi genişləndi satirik qrafika və dəzgah rəngkarlığının daha da inkişafı üçün zəmin yaranmışdır. Bunun sayəsində sonradan Azərbaycan incəsənətində bir sıra görkəmli şəxsiyyətlərin, ziyalıların, rəssamların formalaşmasına ədəbiyyatımızın və incəsənətimizin inkişafına mühüm təsiri olmuşdur. Azərbaycan təsviri sənətinin öndə gedən simaları içərisində öz dəsti xətti və üslubu ilə seçilən, rəng və koloritin sehrinə bələd olan fırça ustalarımızdan biri də Qəzənfər Xalıqovdur.

Azərbaycan təsviri sənətinin inkişafında əvəzsiz xidmətləri olmuş rəssamlardan biri Qəzənfər Xalıqovun sənət əsərləri üzərində araşdırmalar apararkən, onun geniş diapozonlu yaradıcılığında mənalı rəngkarlıq əsərlərinin xüsusi sevgi və ürəklə yaradıldığını deyə bilərik. Onun yaradıcılığı öz başlanğıcını keçən əsrin 30-ci illərdən götürərək böyük bir dövrü əhatə edir. Yaşlı nəslə mənsub rəssamın əsərləri Azərbaycan milli rəngkarlıq sənətinin də parlaq səhifələrindəndir. XX əsrin əvvəllərində Azərbaycan təsviri sənəti yeni növlərin, janrların, sənət formalarının yaranması ilə əlamətdardır. Rəssamlıq məktəbinin yaranmasında Azərbaycanda və əsasən Bakıda realist rus rəssamlarının böyük rolu olmuşdur. Realist rus rəssamlıq məktəbinin nümayəndələri yerli milli ənənələrə böyük maraqla yanaşaraq, yerli bədii məktəb yaradıcılığının zənginləşməsinə də xeyli xidmət göstərmişlər. Bir sıra Azərbaycan rəssamları inqilabi dövrün yeni bədii dilini və milli forma problemini incəsənət kontekstində həll etməyə çalışırdılar. Q.Xalıqovun «Jenotdel» və S.Salamzadənin «Sap sexi» kimi əsərləri müntəxəbat baxımından belələrindəndir. Bunları və bəzi digər rəssamları şərti dekorativ çəkmə üsuluna, plakatvariliyə yol verməkdə, mövzunun təqdiminə səthi yanaşmaqda, həmçinin XIX əsrin sonu Avropa rəssamlığındakı bir sıra bədii cərəyanları yamsılamaqda günahlandırırdılar.

Boyakarlıq bölməsində təqdim olunan əsərlərin kompozisiya və koloritlərində arabir dekorativ-səthilik başlanğıcının üstünlük təşkil etməsinə baxmayaraq, mövzu müxtəlifliyi və aktuallığı rəssamların realizm cəhdlərini sübuta yetirirdi. Bu, rəssamların nəinki hələ realist bo-

yakarlığın vacib üsullarına bir o qədər yiyələnmədiklərini göstərirdi, daha çox xalis xarici, formal üsullarla «milli üslubu» yaratmaq cəhdlərini qabardırdı. Ayrı-ayrı rəssamların əsərlərində Qərb postimpressionizminin təsiri də hiss olunurdu. Bir sıra müəlliflər qeyd edirdilər ki, Q.Xalıqov, Ş.Qazıyev, S.Salamzadə və digər rəssamlar belə üslubun qəsdən təbliğinə çalışırdılar, bununla da onlar incəsənətin milli özünəməxsusluğunu və müasir üslub problemlərini eyni zamanda həll etməyə meyllidirlər. Lakin bu səpkili əsərləri təhlil edərkən qeyri-ixtiyari belə bir fikrə gəlmək olur ki, məhz rəssamlıq peşəsinin əsaslarına malik olmaq problemi həmin illərdə vacib və həlledici sayılmışdır.

1930-cu illərin ortalarında Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin tədris-pedaqoji sistemini yenidən qurmaq və onun şagirdlərini Moskva və Leninqradın (indiki Sankt-Peterburq) bədii Ali Təhsil Müəssisələrinə ezamiyyətə göndərmək vacib məsələyə çevrildi. Bədii sərgilərin təşkili xüsusi yer tutdu. Onlardan birincisi 1930-cu ilin aprelində "10 ildə Azərbaycanın nailiyyətləri" adı ilə açıldı. Bu sərgidə müasir mövzuya həsr olunmuş 150-dən artıq eksponat təqdim olundu: «Kolxoz» (Ş.Qazıyev), «Gəncə tekstil fabriki», «Sap sexi» (S.Salamzadə), «Jenotdel», «Mədəni yürüş» (H.Xalıqov) və b. Əsərlərin mövzularında rəssamların yeni həyat hadisələrini əks etdirmək cəhdləri hiss edilirdisə, onların icrasında vəziyyət heç də yaxşı deyildi. Bu rəssamların ümumi qüsuru təsviretmə, ifadə dilinin realist vasitələrinin zəif olması idi.

Qəzənfər Xalıqov Azərbaycan rəssamlıq tarixinə məhz özünün erkən əsərlərilə, xüsusilə də 1930-cu ildə yaratdığı «Jenotdel» tablosu ilə daxil olmuşdur. Bu tablonun kompozisiyası şəkildə üstünlük təşkil edən effektli parlaq göy, narıncı, sarı, qara, yaşıl, çəhrayı, nəhayət, tünd al tonlu lokal rənglərin ahəngdarlığına əsaslanıb. «Jenotdel» tablosunda rəssamın işə dekorativ yanaşması aydın görünür. Süjetin açıq həlli — qadının-fəalın iflasa uğramış bəyə, yaxud qolçamaqa, ərinə qarşı ifşaedici jesti bu işə plakat səciyyəsi verir. Rəssam öz vəzifəsini tablonun başlıca ideyasını aydın və sadə tərzdə ifadə etmək, bununla yanaşı, zamanın əsas problemini — qadın hərəkatını, Azərbaycan qadınının köləlikdən azad olmasını, onun yeni həyat quruculuğuna fəal qoşulmasını qabarıq təsvir etməkdə görürdü.

Azərbaycanda qadın azadlığı mövzusu mədəniyyətimizin o illərinin aktual mövzularından idi (C.Cabbarlının «Sevil» pyesini xatırlamaq kifayətdir). Əgər qadın, ailə probleminin Azərbaycanda Sovet hakimiyyəti qurularkən, çətin bir vəziyyətdə olduğu nəzərə alınarsa, Q.Xalıqovun bu mövzunu plakat janrında verməsi pozitiv məna kəsb edirdi. Azərbaycan boyakarlığında avanqard problemi birmənalı deyil. İncəsənətimizdə avanqardizm bədii bir cərəyan kimi üç inkişaf mərhələsi keçib. Erkən mərhələ Azərbaycanda yeni incəsənətinin yaranma dövrü ilə əlaqədardır. Moskva və Peterburq kimi mərkəzi şəhərlərdə olduğu kimi, milli respublikalarda da incəsənətin inkişaf yolları ilə bağlı ideoloji mübarizələrə aram verilmirdi. Azərbaycanda da «sağçılar» — realist şərhetmə üsulunun tərəfdarları və «solçular» — Avropa incəsənətindəki yeni cərəyanlara kəskin maraq göstərən rəssamlar var idi. Yəqin ki, onlar impressionizm, postimressionizm, fovizm və XIX sonları – XX əsrin əvvəllərinin digər novator cərəyanlarından tam xəbərdar deyildilər. Lakin bu rəssamlar intuitiv tərzdə öz bədii istedadlarının gücü ilə üstünlüyü tamamilə boyakarlığın bədii ifadə vasitələrinə — rəngə, xətlərlə, süjetə, kompozisiyaya verirdilər. Bu rəssamlar məhz bədii ifadəli təsvir vasitəsilə (ən parlaq nümayəndələri Q.Xalıqov, Ş.Qaziyev, S.Salamzadə) çağdaş milli incəsənətin özünəməxsusluğunu aşkarlamağa çalışırdılar. Lakin qeyd edildiyi kimi, təsvir olunan sadələşdirilmiş tərzdə yanaşmanın əsas səbəbi hər şeydən öncə adi peşəkarlıq vərdişlərinin olmamasından irəli gəlirdi. Buna baxmayaraq, Q.Xalıqovun «Jenotdel», yaxud S.Salamzadənin «Sap sexi» kimi tabloları təsviri sənətdə milli identikliyin erkən axtarışlarına nümunə kimi Azər-

baycan boyakarlıq tarixinə əbədi daxil olmuşdur.

Qəzənfər Xalıqovun yaradıcılığı öz mənbəyini milli sənət kökləri ilə yanaşı, folklor, klassik və müasir ədəbiyyatdan almışdır. Belə əsərləri rəssamın doğma torpağın gözəlliyinə məhəbbəti, heyranlığı milli koloritin harmoniyası ilə özünün sənət kamilliyinə yüksəlmişdir. Onun "Qadınlar şöbəsi" (1930) və "Firdovsinin dəfni" (1934) əsərlərindəki bədii stilizə, dekorativ və lakonik rəng həlli diqqətçəkən və özünəməxsus idi. Lakin zamanında bu özünəməxsusluq heç də yaxşı qarşılanmadı. Heç kəs bu gənclərə qədim və milli ənənələrə yeni nəfəs verdiklərinə görə quruca bir "Sağ olun!" demədi. Əvəzində, kommunist ideoloqları onları burjua incəsənətinə meyllilikdə suçlandırıb, bolluca tənqid etdilər. Düzdür, onlar Moskvadan bütün SSRİ məkanına ixrac edilən "sosialist realizmi" bədii prinsipinin tələblərinə uyğun gəlmirdilər. Ancaq əvəzində gənclərin əsərlərində görünənlər Azərbaycan miniature sənətinin üslub prinsipləri ilə səsləşən bədii-estetik məziyyətlər idilər. Qəzənfər Xalıqovun uğurlu kompozisiya qurmaq bacarığını süjetli-tematik tabloları ilə yanaşı, zaman-zaman müraciət etdiyi digər janrlarda da nümayiş etdirmişdir. Bunu onun ən müxtəlif janrlarda eyni uğurla fəaliyyət göstərməsi də təsdiqləyir. Bununla belə demək lazımdır ki, rəngkarlıqda süjetli tabloları cəlbedici və düşündürücü kompozisiyada birləşdirmək kifayət qədər çətin məsələdir. Belə ki, burada hər bir rəssam özünün məna-məzmunla bədii-texniki ifadə imkanlarını bir araya gətirmək istedadını sərgiləyir və bu qovuşağın necəliyindən asılı olaraq özünün yaradıcı simasını müəyyənləşdirir.

Fransız filosofu D.Didro zamanında kompozisiyanın sadə və aydınlığının hər bir əsər üçün önəm kəsb etdiyini vurğulamışdı. Bunu Azərbaycan rəngkarlığının otuzuncu illər mərhələsində yaradılan əksər tablolarda müşahidə etmək mümkündür. Bu mənada Qəzənfər Xalıqovun "Qadınlar şöbəsi" əsərində qadınların ictimai fəallığının obrazlı bədii həlli kifayət qədər cəlbedicidir. Fiqurları qırmızı masa ətrafına toplayan müəllif süjetin açılmasına yönəli bədii şərhində forma-biçim şərtiliyinə və rəng lakonikliyinə tapınsa da qədim miniatürlərdə olduğu kimi tablonun təsirliliyinə nail ola bilmişdir. O, bunu heç şübhəsiz kompozisiyanı forma-biçim və rəng həlli ilə ifadə olunan dramaturji təzada təslim etməklə əldə etmişdir. Kommunistlərin ölkəyə gətirdiyi və Kremldən idarə olunduğu danılmaz olan yarımçıq "azadlıq" ideyalarının Azərbaycanda gerçəkləşməsinə həsr olunmuş bu tablo duyulası zaman distansiyasından özünün əsil mahiyyətini duyulan etsə də, bütünlükdə süjetin rəssam baxışı ilə reallaşması və baş verənlərə obrazlı görkəm vermək baxımından diqqətə layiqdir... Rəssamın dörd il sonra yaratdığı "Firdovsinin dəfni" tablosu da duyğulandırıcı təxəyyülün nəticəsi kimi yaddaqalan və artıq zamanın sınağından uğurla çıxmış rəngkarlıq nümunəsidir. Əsərdə məşhur "Şahnamə"yə görə hökmdardan alacağı mükafata vaxtında yetişməyən dahi Firdovsinin faciəsi əks olunub. Rəssam məzmunun açımı üçün çox uğurlu kompozisiya həlli tapıb. Mahiyyətcə kifayət qədər təzadlı olan bu bədii həll özünü şəhər mənzərəsi ilə əlaqəli təzahür etdirir. Belə ki, qala divarları ilə əhatələnmiş şəhərin bir darvazasında şairi son mənzilə aparanların dəstəsi, digər qapıda isə Firdovsiyə çatacaq mükafatı şəhərə çatdıran dəvə karvanı təsvir olunub. Bu əsərdə də miniature ənənələrindən gəlmə şərtiliyin tətbiqi kompozisiyanın yığcamlığını təmin etməklə, həm də onun bədii-psixoloji təsirliliyini şərtləndirmişdir. Elə qədim ənənələrə xas olan lakonik rəng həllini ifadə vasitəsinə çevirməyə nail olan bununla hadisənin obrazlaşmasını təmin etmişdir, desək, yanılmarıq...

1940-cı ildə Nizami Gəncəvinin anadan olmasının 800 illiyinin qeyd olunmasına hazırlıqla bağlı onun portretinin yaradılması üçün keçirilən müsabiqədə Qəzənfər Xalıqovun birinci mükafata layiq görülməsi də, heç şübhəsiz onun obraz yaratmaq sahəsində malik olduğu bədii potensialın ifadəsinin yeni mərhələsi oldu. Bu gün hamıya yaxşı tanış olan bu portret zahirən

nə qədər real biçimli görünsə də, daha çox dövrünün yaradıcı şəxsiyyətlərinin ən yaxşı etik-insani keyfiyyətlərini özündə əks etdirən obraz kimi qəbul olunur...

1939-cu ildə Nizami Gəncəvinin bədii obrazının yaradılması üçün rəssamlar arasında müsabiqə elan edilmişdi. Baxmayaraq ki, Qəzənfər Xalıqov müsabiqənin birinci mərhələsində iştirak etməmişdi, lakin, rəssam böyük şairin dərin ifadəli portretini işləmişdi. Məşhur şərqşünas və nizamişünas alim Yevgeni Bertels bu portret haqqında qeyd etmişdir ki, şairin tarixi obrazına uyğundur və Nizami belə görünüşə malik ola bilərdi. Portretin çəkilişinə Xalıqovu öz məsləhətləri ilə Y. Bertels, filosof Heydər Hüseynov və ədəbiyyatşünas Həmid Araslı ilhamlandırmış və təşviq etmişlər. Nəticədə bu üç alimin söylədiklərini nəzərə alan Qəzənfər Xalıqov Nizami Gəncəvinin bədii portretini işləmişdir. 1940-cı ildə müsabiqənin ikinci mərhələsində bu portret müsabiqəyə təqdim edilmiş əsərlər arasında ən yaxşısı seçilərək, birinciliyə layiq görülmüşdür. Müsabiqədə Xalıqovla yanaşı K. Xanlarov, A. Qasımov, T. Tağıyev, M. Nəcəfov, B. Semyonov, R. Topçubaşov və başqaları da iştirak etmişdilər.

1939-cu ildə Azərbaycan SSR MK tərəfindən Nizami Gəncəvinin 800 illik yubileyi keçirilməsi qərara alınır. Amma bu yubileydə Nizamini əyani surətdə canlandıracaq hər hansı şəkli olmur. Buna görə də müsabiqə elan olunur, ədəbiyyatşünaslar, tarixçilər və rəssamlar işə cəlb olunur. Müxtəlif variantlarda Nizaminin portretini çəkirlər. Nizamişünas-Yevgeni Bertels, filosof Heydər Hüseynov və ədəbiyyatşünas Həmid Araslı Nizaminin xarici görünüşünün təxmini necə olduğunu dedikdən sonra Üzeyir Hacıbəyov deyir ki, siz dediyiniz parametrlərdə Ağcəbədidən bir axund tanıyıram. Həmin axunda Tarix – Diyarşünaslıq Muzeyindən alınmış geyimlər geyindirildikdən sonra, rəssam Qəzənfər Xalıqov Nizami Gəncəvinin portretini yaradaraq müsabiqənin qalibi olur. Əsər hazırda Bakı şəhərində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılır. Əsərin ikinci nüsxəsi Gəncə şəhərində, Gəncə Tarix Diyarşünaslıq Muzeyindədir. Bu portret Xalıqovun ciddi yaradıcılıq nailiyyəti hesab olunur. Portretdə Nizami dizində kitab tutmuş şəkildə təsvir edilmişdir. Sənətşünas N. M.Miklaşevskaya qeyd edir ki, tünd rəng koloritinə baxmayaraq, nəcib üz quruluşu və xarakterik baş geyimi, həmçinin ciddi geyim xətləri ilə insanı cəlb edir.

XX əsrdə bir çox rəssamlar xalq kütlələrinin və şəxsiyyətin rolunu realist boyalarla dolğun obrazlar dilində əks etdirən əsərlər yaratmışdılar. Şəxsiyyətə pərəstiş məfkurəsi sənətdə öz mənfi izini qoyurdu. Bununla bərabər, bu sahədə uğurlu axtarışlar da aparılırdı. Azərbaycan rəssamlarının bir sıra müvəffəqiyyətli tablolarında inqilab tarixinin parlaq səhifələri, xalq işi uğrunda fədakarcasına çalışan ictimai xadimlərin fəaliyyəti və obrazları görünməyə başlamışdır. Yüksək sənətkarlıqla işlənən ən kamil əsərlər incəsənətimizin qızıl fonduna daxil olmuşdur. Bu dövrdə zavod və fabriklər, neft və qaz mədənləri, su elektrik stansiyaları, dəmir yolları, yeni şəhərlərin tikildiyi sovetlər ölkəsində müşahidə olunan industrial yüksəliş, gündəlik insan əməyinin coşqun romantikası rəssamların yaradıcılığında öz əksini tapmışdır. Xəzərin yeraltı sərvətinin incəsənətin bütün sahələrini əhatə etməsi ona olan yüksək qiymətin təsiri idi.

Müasir insanın, fəhlənin, tarla əməkçilərinin, ziyalıların, mədəniyyət xadimlərinin mənəvi zənginliyi rəssamlar üçün tükənməz mövzu təşkil etmişdir. Gənc rəssamın tələbəlik işləri arasında portret janrında çəkilmiş əsərlər də az deyildir. Onların arasında çöhrələri iri planda təqdim olunmuş yaşlı adamların portretləri realistik bədii həllinə görə diqqət çəkir. Hər iki portretdə rənglərdən naturanın canlılığının əldə olunmasına duyulası səy göstərildiyi hiss olunmaqdadır. Gürcü mənşəli saqqalı qocanın nurlu baxışlarında müəllif həyat eşqini sona qədər göstərməyə nail olmuşdur. Başı gürcülərə xas papaqlı yaşlı kişinin portretini həm də onun isti tünd rənglərlə əhatələnməsi şərtləndirmişdir, desək, yanılmarıq.

**Məqalənin aktuallığı.** Təsviri sənətin tədrisində xarici rəssamlarla yanaşı Azərbaycan

rəssamlarının həyat və yaradıcılığının öyrənilməsi vacib olan nüanslardan biridir. Tədris zamanı doğma rəssamlarımızın yaradıcılıq yolları, onlar tərcih etdikləri üslublar izlənilməlidir. Məqalə bu mövzuda aktualdır.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan rəssamları timsalında xalq rəssamı Qəzənfər Xalıqovun yaradıcılıq yolunun belə incəliklərlə öyrənilməsi bu yolda irəliləmək arzusunda olan hər kəs üçün işıq ola bilər. Məhz bu səbəbdən rəssamlarımızın yaradıcılıq yollarının tədrisinə xüsusi diqqət yetirilməlidir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tarix sübut etmişdir ki, özünə yaradıcılıq yolu seçən şəxs, bu yolda uğur qazanmış səxsiyyətlərin təcrübələrindən faydalandıqda, daha əmin addımlarla irəliləyərək nailiyyətlər əldə edə bilər. Tədris mövzusunda bu mövzunun təkcə nəzəri cəhətdən deyil, təcrübi cəhətdən də tədrisi öz müsbət nəticəsini göstərəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan incəsənəti. Ə. Salamzadə, N. Rzayev, K.Kərimov, R. Əfəndiyev, N.Həbibov. Bakı, 1977.
2. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Çaşıoğlu, 2001.
3. Həbibov N. Azərbaycan Sovet rəssamlığı. Bakı: Elm, 1966.
4. Габибов Н. Живопись Советского Азербайджана. Баку: Элм, 1982.
5. Наджафов М. Газанфар Халыков. Очерки о жизни и творчестве. Баку, 1977.

**Х.Н. Юсифова**

## Средства художественного выражения в картинах народного художника Газанфара Халикова как предмет обучения

### Резюме

Необходимо более четко проследить творческий путь азербайджанских художников в преподавании изящных искусств. Исходя из этого, в статье рассматривается путь, опыт и успехи живописи как одного из стилей, предпочитаемых народным художником Газанфаром Халиковым.

**X.N. Yusifova**

## Means of artistic expression in the paintings of People's Artist Gazanfar Khalikov as a teaching subject

### Summary

The creative ways of Azerbaijani artists in the teaching of fine arts should be followed and taught more clearly. On this basis, the article discusses the path, experience and success of painting as one of the styles preferred by People's Artist Gazanfar Khalikov.

**Redaksiyaya daxil olub:** 18.09.2020